Sivilizasiya, Cild 13 №2 2024 (58)
Bakı Avrasiya Universiteti

**UOT 338.48**

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAFINDA YENİ MƏRHƏLƏ

**Ülkər CƏFƏROVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 29 fevral 2024; çapa qəbul edilmişdir: 7 aprel 2024; online-da çap edilmişdir: 24 may 2024.

Received: 29th of February, 2024; accepted: 7th of April, 2024; published online: 24th of May, 2024.

**Açar sözlər:** *turizm, turizm potensialı, turizm xidmətləri, turizm fəaliyyəti, turizm məhsulları*

## Giriş

Müasir dövrdə dünyada baş verən qlobal proseslər fonunda turizm sektoru Azərbaycan iqtisadiyyatının getdikcə daha vacib tərkib hissəsinə çevrilir. Bu mənada lazımi infrastrukturun mövcud olmaması onun potensialından tam istifadə etməyə imkan vermir. İşğaldan azad olunan Qarabağ bölgəsi ölkəmizdə daxili turizmin inkişafına təkan verməklə yanaşı, eyni zamanda bir çox problemləri də üzə çıxarıb. Qarabağın işğaldan azad olunmuş ərazilərinin ölkənin ən mühüm turizm zonaları kimi nəzərdən keçirilməsi zamanı məlum oldu ki, regionun əksər turizm zonaları bir çox infrastruktur problemi ilə üzləşib-yerləşdirmə, işıqlandırma, sosial infrastruktur, keyfiyyətsiz yollar və s. Eyni zamanda, bu problemlərin həlli paralel olaraq bölgənin turizm sənayesinin davamlı inkişafı üçün də zəruri şərtdir. Nəticə etibarilə, regionun turizm sektorunun yaxın gələcəkdə inkişafı strategiyasını işləyib hazırlamaq üçün bölgənin turizm sektorunun problemlərinin həlli yollarının təklif edilməsi və bu istiqamətdə təkliflər paketinin hazırlanması bütövlükdə turizm sənayesinin vəziyyətini yaxşılaşdırmaqla, onun regional iqtisadiyyata töhfəsini daha da artıracaqdır.

Son illər dünyada baş verən iqtisadi və siyasi böhran, eləcə də epidemiya, müharibə şəraiti turizm sektoruna ciddi təhlükələr yaratmışdır. İqtisadiyyatı birbaşa turizmdən asılı olan ölkələr üçün epidemiya və müharibə çoxciddi iqtisadi və sosial təsirlərə səbəb olur. Paralel olaraq turizmdən dolayı yolla asılı olan bir çox sahələrin olduğunu nəzərə alsaq, müharibə və epidemiyanın çarpan təsiri turizmdən birbaşa asılı olan destinasiyalarda digərlərinə nisbətən daha ciddi şəkildə özünü büruzə verir. Bu hadisələrin fonunda, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində turizm infrastruktrunun qurulması zamanı ortaya çıxan çətinliklər olduqca çoxdur. Bundan əlavə, işğaldan azad edilmiş torpaqlardakı mənzərə böyük çətinliklərdən xəbər verir. Çünki hər şey dağıdılıb – infrastruktur dağılıb, binalar sökülüb, inzibati binalar yoxdur. Hal-hazırda həmin yerlərdə turist yaşayışı üçün heç bir şərait yoxdur. Təbii ki, infrastrukturun bu qədər yararsız və əlverişsiz olması regionda turizmin inkişafını xeyli ləngidir və bərpa işləri üçün daha çox sərmayə tələb

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* uceferova4@gmail.com

olunur. İnvestorlara edilən vergi və digər güzəştlərin təsiri bu regionda turizmin zamanla bərpa edilməsinə və vətəndaşların bu ərazilərdə normal çalışması və yaşaması üçün zəruri olan bütün addımların atılmasına dəstək olacaqdır. Bölgədə artıq ilk layihələrin icrasına başlanılmış və Prezidentin ehtiyat fondundan müvafiq vəsait ayrılmışdır. Bərdə-Ağdam dəmir yolunun, Füzuli-Şuşa avtomobil yolunun və Kəlbəcər-Laçın yolunun yenidən tikintisinə başlanılmışdır. Bu da onu deməyə bir daha əsas verir ki, artıq biz bütün bu işləri maksimum dərəcədə səmərəli təşkil edir və paralel olaraq, vaxt itkisinə yol vermədən qısa zaman kəsiyində reallaşmasını planlaşdırırıq. Bu məqsədlə artıq müvafiq dövlət qurumları yaradılıb və bütün bu təxirəsalınmaz işlərin əlaqələndirilmiş formada həyata keçirilməsinə təkan verilmişdir.

## 1. Ölkədə turizmin inkişafına retrospektiv yanaşma

Tədqiqatlar göstərir ki, Azərbaycanın rəngarəng təbiəti və iqlim şəraitinə, rekreasiya resurslarının böyük potensialına və növ müxtəlifliyinə baxmayaraq, turizmin ölkə iqtisadiyyatına verdiyi töhfə hələ də lazımi səviyyədə deyil. Ölkə ÜDM-də turizmin orta gəlir payı 2022-ci ildə 1,6% təşkil edir ki, bu da ilk növbədə, Azərbaycanın müxtəlif bölgələrinin mövcud turizm potensialından hələ də əhəmiyyətli dərəcədə istifadə olunmaması, eləcə də sözügedən sahədə səmərəli turizm biznesinin idarə olunması sisteminin çatışmazlıqları, xüsusən də, işğaldan azad edilmiş bölgələrin minalardan təmizlənməməsi və olduqca təhlükəli və riskli olması ilə əlaqədardır. Təxirəsalınmaz işlərin görülməsi fonunda Qarabağ bölgəsinin turizm potensialı, bu ərazilərdə zəruri infrastrukturun yaradılması yaxın gələcəkdə ölkənin ÜDM-nə əsaslı töhfə verəcəyinə ümid verir.

Ölkə turizminin inkişafına əngəl törədən ən vacib səbəblərdən biri də, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində turizmlə bağlı problemlərin mahiyyətini tam anlamaq üçün ölkənin digər regionlarında turizmin əsas problemlərini sistemli şəkildə araşdıraraq onlardan bəzilərinə nəzər salmağın vacibliyidir. Bütün qeyd olunanları anlamaq üçün turizmlə bağlı aşağıdakı problemləri nəzərdən keçirmək olar:

***Şəkil 1***

***Azərbaycanın işğaldan azad edilmiş ərazilərində turizmlə bağlı problemlər***




**Mənbə:** (Müəllif tərəfindən tərtib edilmişdir)

Yuxarıdakı məlumatlardan da göründüyü kimi, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində turizmlə bağlı problemlərə əsasən:

- Turizm məkanlarının tikintisi maliyyə baxımından baha başa gəldiyindən sahibkarlar bu sahəyə maraq göstərmək istəmirlər;
- İnvestorları cəlb edə biləcək müasir infrastrukturun olmaması;
- Turizm potensialının zəif təbliğ edilməsi;
- İnvestorların investisiya təşviqlərindən narazılığı və s. aid edilir.

**2. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində turizmin inkişaf problemləri**

Bütün bunlarla yanaşı, son vaxtlar bölgələr də otel qiymətlərinin çox yüksək olması, istirahət mərkəzlərində göstərilən turizm xidmətlərinin müasir dünya standartlarına tam olaraq cavab verməməsi, bələdçilərin olmaması, suvenir çeşidinin azlığı, heç olmaması və s. kimi bir sıra ciddi problemlər həllini hələ də gözləyir. Ölkədə turizm sektorunun mövcud problemlərinə bu cür etinasızlıq, turizmdə lazımi qədər kapitalın olmaması və eləcə də sonunda bu sahədə ümumi vəziyyətə kifayət qədər diqqət verilməməsi turizmin inkişafına mənfi təsir göstərir.

Azərbaycanın müxtəlif regionlarında fəaliyyət göstərən otel, mehmanxana və müxtəlif istirahət mərkəzlərinin fasilələrlə ilin müəyyən fəsillərində çalışması, fəaliyyət göstərməsi, eləcə də hər mövsüm tamamilə yeni işçilərin işə qəbul edilməsi nəticədə göstərilən xidmətin keyfiyyətinə öz mənfi təsirini göstərir. Sonda da, kadr potensialının peşə hazırlığı səviyyəsində də lazımi peşəkarlığın olmaması səbəbindən müəyyən problemlər yaşanır.

Qeyd edək ki, turizm sektorunun regionda sürətlə inkişafı üçün keyfiyyətli turizm obyektləri və keyfiyyətli xidmətlər göstərən kontingent tələb olunur. Araşdırmalar göstərir ki, hələ də Azərbaycanda turizm sahəsində ixtisaslı işçi çatışmazlığı müşahidə olunmaqdadır. Bu mənada işğaldan azad edilmiş ərazilərimizdə sözügedən sahə üzrə fəaliyyət göstərəcək insanların peşəkar xidmətlərin və ixtisaslı turizm obyektlərinin yaradılması istiqamətində hazırlanması olduqca vacibdir. Ölkəmizin Ali təhsil müəssisələrində turizm sahəsi üzrə təhsil alan tələbələrə nəzəri biliklərlə yanaşı, müxtəlif peşə bacarıqları və vərdişlərinin aşılanması da təhsildə atılası zəruri addımlardandır. İşğaldan azad olmuş bölgələrdə turizm sektorunun dinamik inkişaf xarakterinə görə təhsil dünya standartları səviyyəsində oxşar xüsusiyyətlər göstərməli və bu sektorun ixtisaslı işçi qüvvəsinə olan ehtiyacı yalnız turizm təhsili almış kadrlar tərəfindən ödənilməsi təmin edilməlidir.

Azərbaycanda daxili turizmin inkişafı əsasən tarixi-mədəni dəyərlərin sistemli tədqiqi və inkişaf etməmiş ərazilərin iqtisadi dirçəlişi baxımından son dərəcə əhəmiyyətlidir. Çox təəssüf ki, uzun illər davam edən müharibə vəziyyəti, münaqişələr, iqtisadi problemlər və eləcə də səyahət mədəniyyətinin formalaşmaması ölkəmizdə daxili turizmin inkişafına ciddi şəkildə mane olurdu. Bununla belə, qeyd edək ki, Avropanın turizmi əsasən inkişaf etmiş bir çox ölkələrin daxili turizmi ilə xarici turizm arasında yaranan sağlam rəqabət əsasında balans yaratmağa səbəb olmuş və bu ölkələrdə daxili turizm sektoru xarici turizmə alternativ deyil, bir-birini tamamlamaqla inkişaf etmişdir. Belə ki, məsələn, Fransada daxili turizm səyahət bazarının 65%-ini, Almaniyada isə demək olar 47 %-i məhz daxili turizm bazarı hesabına reallaşmışdır [2, s.128].

Son günlər Azərbaycan turizm bazarının çox ciddi şəkildə üzləşdiyi ən mühüm problemlərdən biri də demək olar ki, miqyas iqtisadiyyatlarından tam yararlanmamaq nəticəsində mümkün olan optimal qiyməti düzgün müəyyən edə bilməməsidir. Yəni turizm sektorunda yeni inkişaf yoluna istiqamətlənən ölkə kimi Azərbaycanda da istehsal olunan turizm sənayesi məhsulları təbii ki, dünya turizm bazarında o qədər də tanınmır. Məhz buna görə

də, turizm məhsulunun qiymətləri əsasən ölkəyə gələn turistlərin birbaşa maliyyə potensialına və xüsusən də xərcləmə meyllərinə uyğun olaraq təyin edilməlidir.

Ölkənin böyük turizm potensialına baxmayaraq, ölkəmizin digər qarşılaşdığı turizm problemi, yalnız bir neçə ərazinin, xüsusən də Bakı şəhərinin turistlər üçün tanınmasıdır. Bu da ölkə turizminin şaxələndirilməsi və eləcə də bütün ölkəyə yayılması olduqca vacibdir. Azərbaycan regionlarının spesifik xüsusiyyətlərinin düzgün müəyyənləşdirilməsi və onların qorunması, birbaşa turizmin təşviqində regional fərqlərdən tam şəkildə səmərəli istifadə etməklə ölkənin sosial-iqtisadi inkişafına təkan verməklə sürətləndirilə bilər.

### 3. İşğaldan azad olunmuş ərazilərdə turizmin inkişaf problemlərinin həlli yollar

"İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 10 dekabr tarixli sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə iqtisadi və əmək resurslarının səmərəli idarə olunması, onların emal sənayesinin və xidmət infrastrukturunun yaradılması məqsədilə vergi, sosial sığorta və digər güzəştlərin tətbiqi, habelə həmin ərazilərdə özəl təşəbbüslərin stimullaşdırılması, investisiya təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi tapşırılıb [1, s.1].

Beynəlxalq təcrübəyə əsaslanaraq Azərbaycanın işğaldan azad olunmuş ərazilərində turizmin inkişafında diqqət çəkən problemlərin birbaşa həlli yolları mümkün variantlarda həyata keçirilə bilər. Müasir strategiya menecmentinin ən vacib ölçmə üsullarından biri hesab edilən *SWOT* təhlili müəssisənin daxili və xarici mühitini qiymətləndirməyə imkan verən mükəmməl bir təhlil texnikasıdır. Belə ki, *SWOT* analizi vasitəsilə daxili və xarici mühit amilləri nəzərə alınaraq mümkün olan güclü və böyük imkanların ən öncül səviyyədən bəhrələndiyi zəruri nöqtələrə diqqət yetirərək şirkət üçün zəif və təhdidləri sonunda minimuma endirəcək plan və strategiyaların məqsədyönlü şəkildə hazırlanmasıdır. Adətən, *SWOT* təhlili çox vaxt şirkət üçün plan hazırlamaq və ya problemi aşkar etmək və ya onun həlli yolunu tapmaq üçün istifadə edilir. Başqa sözlə desək, *SWOT* təhlili ümumilikdə həm ölkə idarəçiliyi və iqtisadiyyatı, həm də yerli və xarici investorlar haqqında məlumat verir [3, s. 8]. *SWOT* Təhlili müxtəlif inkişaf siyasətləri və strategiyaları müəyyən edən ölkələr üçün potensial resurslarından optimal şəkildə istifadə etmək və yeni strategiyalar hazırlamaq üçün strateji əhəmiyyət kəsb edir [4, s. 58].

Qeyd edək ki, Azərbaycanın işğaldan azad olunmuş bölgələrində iqtisadi inkişafın reallaşdırılması və ölkənin resurslarından optimal istifadə edilməsi məqsədilə turizm sektorunun sistemli təhlilinin aparılması üçün *SWOT* təhlili mühüm imkandır. Turizm sektorunda multiplikator təsiri ilə sektorlararası əlavə dəyər yüksəkdir. Bu fakt onu göstərir ki, Azərbaycanda turizm sektoru məhsuldar fəaliyyətdir. Bu gün Azərbaycan iqtisadi inkişafı zəngin karbohidrogen ehtiyatları (neft və qaz) hesabına təmin edir. Lakin bu vəziyyət iqtisadiyyatın birtərəfli inkişafına şərait yaradır ki, bu da digər sahələrin inkişafına mane olur. Problemdən çıxış yolu bərpa olunmayan resurs olan neftdən başqa sahələrin inkişafına dəstək olmalıdır. Bu məqsədlə Azərbaycan hökuməti post-neft dövrü nəzərə alınmaqla digər sahələrin inkişafı üzrə dövlət proqramları qəbul etmişdir [5, s. 76-77].

Qloballaşan Dünya təcrübəsində yüksək gəlirlilik potensialına malik turizm məhsul və xidmətləri daimi diqqət və istehlakçıların seçimlərinə uyğunlaşma tələb edir. Azərbaycanın işğaldan azad edilmiş bölgələrində turizm məhsullarının inkişafı üzrə özəl təşəbbüslərin təşviqi, yerli və regional səviyyədə müvafiq koordinasiyanın yaradılması, istehlakçı tələbatının diqqət mərkəzində saxlanılması, məhsulların inkişafına regional tematik diqqətin gücləndirilməsi, maraqlı və cəlbedici məhsulların əlaqələndirilməsi bölgədə turizm infrastrukturun yaradılması zamanı yaranan problemlərin həlli yolu ola bilər.

Qarabağ bölgəsinin turizm bölgəsi və ya turizm mərkəzi elan edilməsi üçün bölgədə turizmin inkişafı planının yaradılması, plan çərçivəsində hədəf auditoriyasının müəyyən edilməsi, turizm və investisiya üçün cəlbedici sahələrin müəyyən edilməsi bu problemlərin həll yollarındandır [6, s. 50]. Turizm sektorunun problemlərinin həllinə kompleks yanaşmaq lazımdır. İşğaldan azad edilmiş ərazilərin turizm cəlbediciliyini artırmaq üçün təkliflər hazırlamaq lazımdır. Beləliklə, aşağıdakı tərtib edilmiş cədvəl, işğaldan azad edilmiş bölgələrdə turizm sənayesinin infrastrukturunun SWOT təhlili vasitəsilə analiz etməyimizə imkan verir:

***Cədvəl 1***

***İşğaldan azad edilmiş ərazilərdə turizm sənayesinin SWOT təhlili***

| **Güclü tərəflər** | **Zəif tərəflər** |
|---|---|
| •öz tikinti sənayesi bazasının olması;<br>•yeni turizm obyektlərinin yaradılması üçün təbii şəraitin mövcudluğu;<br>•təbii, arxeoloji və tarixi obyektlərin mövcudluğu;<br>•mədəni irsin qorunması;<br>•mədəni dəyərlərin yenilənməsi;<br>•mövcud tarixi abidələrin və strukturlarının bərpası və ya təkmilləşdirilməsi üçün ölkədə hərəkətverici qüvvə olması. | •turizm obyektlərini birləşdirən keyfiyyətli avtomobil yolunun olmaması;<br>• yerli hava limanının aşağı tutumluluğu;<br>•Qarabağ ərazilərinin inkişaf etməmiş infrastrukturu;<br>• zəif inkişaf etmiş əyləncə sənayesi;<br>• dəmir yolları şəbəkəsinin olmaması;<br>• su, hava və səs-küy çirkliliyi;<br>• vizual çirklənmə;<br>• bioloji müxtəlifliyin azalması;<br>•arxeoloji və tarixi obyektlərin zədələnməsi;<br>• torpaqdan istifadə problemləri;<br>• regionda məşğulluğun az olması;<br>• mədəni təsirlər və sosial problemlər. |
| **İmkanlar** | **Təhdidlər** |
| • turizmə maliyyə dövlət dəstəyi;<br>• investisiya üstünlüklərinin artması;<br>• infrastruktur imkanlarının inkişafı;<br>• kiçik və orta bizneslər üçün dövlət dəstəyi;<br>• turizm sektoru ilə bağlı sahibkarlıq qabiliyyətinin artırılması;<br>• ərazidə turizmlə bağlı stimullaşdırıcı tədbirlər. | •mədəni irs obyektlərinin düşmən tərəfindən dağıdılması;<br>•turizm xidmətləri istehsalında ixtisaslı kadrların miqrasiyası;<br>•Pandemiya şəraitinin dünyada və ölkəmizdə davam etməsi. |

Reallıqlar bir daha təsdiq edir ki, Türkiyə həm iqtisadi, həm mədəni, həm də siyasi baxımdan Azərbaycana ən yaxın ölkədir və turizm təcrübəsi var. Bu mənada Azərbaycanın Türkiyənin turizmin inkişafı prosesində öz təcrübəsini öyrənməsi və tətbiqi daha mənalı və asan olacaq. Türkiyədə olduğu kimi, Azərbaycanda da fəaliyyət göstərən turizm şirkətlərinin şəbəkələşməsi və onların beynəlxalq təşkilatlarda fəaliyyətini təmin etməsi bu sektorun inkişafı üçün hərəkətverici qüvvələrdən biri ola bilər. Bu gün marketinq strategiyalarının hazırlanması sektorun inkişafı üçün zəruri şərtdir. Ölkənin turizm marketinqində bütün yerli və xarici maraqlı tərəflərin koordinasiyalı iştirakı ilə ölkənin turizm SWOT təhlili ilə marketinq strategiyasının hazırlanması optimal fayda təmin edə bilər. Azərbaycanda turizm sahəsində inkişaf etmiş ölkə modellərinin tətbiqi sektorun inkişafına böyük müsbət təsir göstərə bilər. Son illərdə Azərbaycan Respublikasının beynəlxalq aləmdə siyasi və iqtisadi nüfuzunun artması turizm sektoruna da müsbət təsir göstərmişdir [7, s.50]. Ona görə də, siyasi sabitlik ölkəyə gələn xarici turistlərin sayının artmasına və ticarət həcminin artmasına səbəb olmuşdur. Eyni zamanda, Azərbaycanda aparılan iqtisadi islahatlar turizmin inkişafı üçün mühüm rol oynayır. Bu sahədə prioritet

təbii coğrafi şəraitin və regionların potensialının iqtisadi gəlirə çevrilməsidir. Ölkədə mərkəzi maliyyə resursları yerli büdcələrdə cəmləşdiyindən turizmin maliyyələşdirilməsi proqramları üçün kreditlər və təkbətək investisiya imkanlarından dövlət və qeyri-dövlət maliyyə resurslarından istifadənin səmərəli istiqamətləri kimi getdikcə daha çox istifadə olunur. Rəqabət mühiti yeni texnologiyalar və restrukturizasiya sahələrini müəyyən etməklə müxtəlif resurslara investisiya qoymaq imkanını artırır. Restrukturizasiyanın vaxtı və iqtisadi cəhətdən səmərəli təşkili turizmin idarə edilməsində regional və mərkəzi maraqların konsolidasiyası və ədalətli bölüşdürülməsi yolu ilə mümkündür. Turist tələbini yüksək istehlak mədəniyyətinin tərkib hissəsinə çevirmək üçün şərait və mexanizmlərdən istifadə etməklə yeniləşmə aparılmalıdır [8, s. 42]. Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki perspektiv komponentlər, xüsusilə, 2025-ci ildən sonrakı dövr üçün Azərbaycanın dünya turizm sektorunda ən çox seçilən 20 turizm bölgəsindən biri olmağını hədəfləyir. Azərbaycanda bu məqsədlə brendinq tədbirlərinin həyata keçirilməsi, infrastrukturun təkmilləşdirilməsi, eləcə də cəlbedici turizm istiqamətlərinin xidmət keyfiyyətinin artırılması ölkəni beynəlxalq turizm bazarında cəlbedici turizm elementinə çevirə bilər. Bu yolla dünyanın hər yerindən potensial turistlər Azərbaycanın Qarabağ regionuna səfər edəcəklər. Araşdırmanın nəticəsində turizmin Azərbaycan iqtisadiyyatı üçün hərəkətverici qüvvə ola biləcək bir sektor kimi böyük potensiala malik olduğu müəyyən edilmişdir. Lakin bütün bu müsbət potensiala baxmayaraq, turizmin tez-tez xarici amillərin təsirinə məruz qalması da diqqətdən kənarda qalmamalıdır. Yaşanan siyasi problemlər, pandemiyalar kimi sağlamlıq problemləri Azərbaycan qədər bütün ölkələrin mühüm problemlərindəndir. Bu mənfi təsirləri minimuma endirməklə, dərhal turizm yönümlü siyasətlərin optimallaşdırılmasına diqqət yetirmək üçün bir araşdırma təklifi kimi təqdim olunur.

**Nəticə**

İşğaldan azad olunmuş rayonlarda turizmin inkişafının əhəmiyyəti qloballaşan dünyada gedən proseslər baxımından çox önəmlidir. Ölkələrin valyuta kəsirlərinin bağlanmasında sektorun əhəmiyyəti diqqətdən kənarda qalmayacaq qədər yüksəkdir. Valyuta gəlirlərinin əldə edilməsində mühüm amillərdən biri ölkəyə gələn turistlərin sayıdır. Ölkəyə nə qədər çox turist gəlib pul xərcləyirsə, valyuta gəlirləri də bir o qədər artır. Qarabağın işğaldan azad olunmuş bölgələrində quruculuq işləri görərkən qarşılaşdığımız ümumi problemlərdən biri, dünya miqyasında bu cür regional inkişafda olduğu kimi investisiyaların maliyyələşdirilməsində, resurs tapmaqda üzləşilən çətinliklərdir. Eyni zamanda əmanət faizlərinin qeyri-adekvatlığı da investisiyaların artırılmasında mühüm problem kimi qarşıya çıxır. Qarabağ regionunda əmanət boşluqlarının aradan qaldırılması istehsal sektorunun inkişafı üçün vacibdir. Şübhəsiz ki, bu kəsirin maliyyələşdirilməsinin mühüm mənbələrindən biri də turizm sektorudur. Turizm gəlirləri təkcə valyuta gəlirləri baxımından deyil, həm də daha ucuz xammal əldə etmək və xarici valyutanın maya dəyərini azaltmaq baxımından mühüm məsələdir. Bundan əlavə, turizm sektoru Qarabağ regionunda digər sektorlar kimi sosial-iqtisadi inkişafı artırmaq və məşğulluq yaratmaq baxımından görünən və görünməyən bir çox fərqli sektora təsir göstərəcəkdir. İşğaldan azad olunmuş ərazilərdə sahibkarların turizmin sosial-iqtisadi təsirləri ilə bağlı düşüncələri və turizm qavrayışı bir çox amillərə görə fərqlənir. Bu ona görədir ki, Qarabağ ərazisində turizmə bir çox amillər təsir etməkdədir və bu amillər bölgədən bölgəyə, hətta vəziyyətdən vəziyyətə dəyişməkdədir. Bu amillər və təsirlər nəticəsində tərəflərin də təsəvvürü fərqli olur. Turizmin inkişaf amilləri işğaldan azad olunmuş ərazilər üçün aşağıdakı təkliflər irəli sürülə bilər:

1. İşğaldan azad olunmuş bölgələrdə turizmi şaxələndirmək və regional potensialdan istifadə etmək üçün sahibkarlara layihələr, müxtəlif güzəştlər, uzunmüddətli aşağı faizli kreditlər və vergi güzəştləri kimi imkanlarla təmin etmək üçün səylər göstərilməlidir.

2. Sahibkarların maliyyə yardımlarından bəhrələnmələri və işğal zamanı zərər görmüş obyektlərini bərpa etmələri təmin edilməlidir. Beləliklə, obyektlərin xidmət keyfiyyəti və standartları artırılmalı, Qarabağ ərazisində turistlərin qalma müddəti uzadılmalıdır.

3. Turistlərlə üz-üzə ünsiyyətdən məmnunluq yaxşı təlim keçmiş və ixtisaslı kadrlarla əldə edilə bilər. Ölkəmizdə ixtisaslı kadr çatışmazlığı demək olar ki yoxdur. Müəssisələr bu potensialdan yaxşı istifadə etməlidirlər. Qarabağ tarixi ilə bağlı gələn turistlərin məlumatlandırılması və onların bütün bu sahə ilə bağlı sualları cavablandırması çox əhəmiyyətlidir.

4. Qarabağda turizm idarəçiliyini təkmilləşdirmək üçün layihə hazırlanmalıdır. Burada dövlət turizm sənayesinin inkişafı üçün innovativ vasitələrin hazırlanmasını və tətbiqini nəzərdə tutur.

## ƏDƏBİYYAT


1. Əvazlı K. Turizmin sosial-iqtisadi nəticələri. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2016, 81 s.
2. Hüseyn A. Covid-19 pandemiyasının turizm sektoruna təsirinin qiymətləndirilməsi // İpək Yolu, 2021, №2, s. 50-58.
3. “İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 10 dekabr tarixli sərəncamı (https://e-qanun.az/framework/48788).
4. Məmmədov E. Azərbaycanda turizm bazarının formalaşması və idarə edilməsinin regional xüsusiyyətləri. Bakı: Gənclik, 2013, 172 s.
5. Müzəffərli F. Turizmin fiskal planlaşdırılması. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2017, 82 s.
6. Nəbiyev E. İstehlakçı davranışının marketinq tədqiqi. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2016, 86 s.
7. Gandilova S. Features and prospects of development of tourism in Karabakh//. Economic and Social Development: Book of Proceedings, 2021, pp.1095-1099.
8. Güzel Ö. Domestic tourism analysis in Turkey and alternative tourism opportunities to vitalize the domestic tourism market // Mustafa Kemal Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2013, vol. 8, №16, pp.127-144.
9. Öztürk S. Determining Management Strategies for the Sarikum Nature Protection Area//. Article is Published With Open Access. Environ Monit Assess, 2015, №187, pp.1-9.
10. Travel & Tourism Economic Impact 2017 World. (http://www.wttc.org/).
11. www.maliye.gov.az


***Резюме***

***Улькар Джафарова***

***Новый этап развития туризма на территориях освобожденных от оккупации***

В статье на фоне потенциала Азербайджана стать ведущим игроком на мировом туристическом рынке, с началом нового периода развития на территориях, освобожденных от оккупации, этот потенциал еще больше увеличился и были запущены важные инвестиции" в направлении превращения рая Кавказа в мировой туристический центр». Карабахский регион представляет собой нетронутую географию для туристического сектора региона с его природной красотой, культурным богатством, исторической структурой и эндемичной растительностью. Основная цель статьи – понять перспективы развития туризма на освобожденных территориях, обратить внимание на траекторию его раз-

вития. Региональные характеристики туризма были проанализированы с использованием в исследовательской работе методов анализа, сравнения и синтеза. В статье также рассматриваются такие понятия, как «туризм», «внутренний туризм», «туристический потенциал» на освобожденных территориях Карабаха, рассматриваются государственные меры по поддержке предприятий в сфере туризма, оцениваются перспективы развития внутреннего туризма в Азербайджане. Освещены приоритеты развития туристической отрасли в современных реалиях, показаны современные проблемы туристической отрасли в новых экономических условиях. В настоящее время можно сделать вывод, что туристические компании, работающие по зарубежным направлениям, должны либо быть доступны для полетов, либо должны быть направлены на развитие внутреннего туризма. Высшим приоритетом является привлечение компаний, которые продолжат свою деятельность в развитии туризма в Азербайджане. В такой ситуации государство будет полностью готово поддержать развитие туристической отрасли на освобожденных от оккупации территориях. Нынешняя ситуация осложняется тем, что около 80% всех туристических предприятий в Азербайджане являются малыми и средними предприятиями, не имеющими достаточных финансовых ресурсов для самостоятельной борьбы с кризисом и защиты своих рабочих мест. Однако опыт предыдущих кризисов показывает, что при правильной поддержке туризм может стать одним из важных катализаторов восстановления всей экономики. Каждый из результатов и рекомендаций, полученных в ходе исследования, может быть использован для улучшения развития туризма на освобожденных территориях Азербайджана.

**Ключевые слова:** *туризм, туристический потенциал, туристические услуги, туристическая деятельность, туристические продукты*

***Summary***

***Ulkar Jafarova***

***A New Phase ın the Development of Tourısm ın the Terrıtorıes Lıberated from Occupatıon***

In the article, against the background of Azerbaijan's potential to become a leading player in the global tourism market, with the beginning of a new period of development in the territories freed from occupation, this potential has been further increased and important investments have been launched "in the direction of turning the paradise of the Caucasus into the world's tourism center". The Karabakh region is an untouched geography for the tourism sector in the region with its natural beauty, cultural richness, historical texture and endemic vegetation. The main goal of the article is to understand the development prospects of tourism in the liberated territories, to pay attention to its development trajectory. The regional characteristics of tourism were analyzed using the methods of analysis, comparison and synthesis in the research work. The article also discusses concepts such as "tourism", "domestic tourism", "tourism potential" in the liberated territories of Karabakh, reviews state measures to support enterprises in the field of tourism, and evaluates the development prospects of domestic tourism in Azerbaijan. The development priorities of the tourism industry in the current realities are highlighted by showing the modern problems of the tourism industry in the new economic conditions. Currently, it can be concluded that tourism companies operating in foreign destinations should either be available for flights or should be directed to the development of domestic tourism. The highest priority is the involvement of companies that will continue their activities in the development of travel in Azerbaijan. In such a situation, the state will be fully prepared to support the development of the tourism industry in the territories freed from occupation. The current situation is complicated by the fact that about 80% of all tourism enterprises in Azerbaijan are small and medium-sized businesses that do not have enough financial resources to independently fight the crisis and protect their jobs. However, the experience of previous crises shows that, if given the right support, tourism can become one of the important catalysts for the recovery of the entire economy. Each of the results and recommedations obtained in the study can be used to improve the development of tourism in the liberated territories of Azerbaijan.

***Keywords:*** *tourism, tourism potential, tourism services, tourism activity, tourism products.*

Şöbə redaktoru i.ü.f.d., dos. Ələsgərova Flora Qəməndər qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.